# Mövzuya variasiyalar

...Noyabrın 6-da tanınmış ispan aktyoru, Beynəlxalq Teatr Tədqiqatçıları Federasiyası İdarə Heyətinin üzvü Boris Daussa-Pastor S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında seminar-treninq keçdi. Seminar-treninq sayəsində gənc aktyorlar Daussa-Pastorun təqdimatında "Karri Marqolis metodu" ilə tanış olmaq imkanı qazandılar.

* * *

...Həmin günün növbəti seminarı "Teatr teatrşünaslardan nə gözləyir?" adlanırdı. Teatr tənqidçisi, Moskva Bədaye Akademik Teatrı yanında məktəb-studiyanın mühazirəçisi Pavel Rudnev sözünə, əslində, "Teatr teatrşünaslardan nə gözləyir" sualının bir qədər yanlış olması qənaəti ilə başladı və bu yanlışlığı teatrın teatrşünasdan yalnız tərif gözləməsi ilə izah etdi. Və bu məqam ətrafında fikrini xırdalayan mütəxəssis bildirdi ki, teatr tənqidçiləri, teatrşünaslar, teatrdan yazan publisistlər 20–30 əvvəlki nüfuzlarının xiffətini çəkməkdənsə, onlara qonorar ödənilməməsindən üzülməkdənsə, nüfuzların yeni tərəflərini görməlidirlər, mediator rolunda çıxış etməli olduqlarının fərqinə varmalıdırlar. Rudnev qeyd etdi ki, məhz onlar müasir dramaturqlara, rejissorlara etibarsızlıq "divarını uçurmağa" qadirdilər və buna real nümunələr var – Fomenkonun, Qrişkovetsin, Vırıpayevin tamaşalarını ilk vaxtlar yarıboş zallar üçün oynayırdılar. Bir sözlə, özünü teatrdan yazmağa haqlı sayan kəs mütəmadi mütaliə etməli, çağdaş dramaturgiyada meydana gələn əsl yeni mütərəqqi tendensiyaları görməyi bacarmalıdırlar ki, müasir rejissorluq belə dramaturgiyanın sayəsində həqiqi inkişaf mərhələsinə qədəm qoysun.

* * *

Həmin gün Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanasında konfrans çərçivəsində AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, Milli Məclisin üzvü, professor Yaqub Mahmudovun "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" kitabının misirli mütəxəssis Abd ər-Rəhman əl-Xamissi tərəfindən ərəb dilinə tərcümə nəşrinin təqdimatı da baş tutub.

* * *

Noyabrın 9-da Gənc Tamaşaçılar Teatrında "Na Liteynom" Dövlət Dram Teatrının rejissoru Andrey Sidelnikovun treninqi, Dövlət Musiqili Teatrında isə mühazirəçi, məsləhətçi, təlimçi, yaradıcılıq ilə biznesə həsr olunmuş kitabların müəllifi Devid Pərrişin "Yaradıcılıq və biznes: teatr üçün yeni imkanlar" adlı seminarı baş tutdu. D.Pərrişin seminarından öncə konfransın təşkilat komitəsinin icraçı katibi Şaiq Səfərov sənət ocaqlarının fəaliyyətini daha da davamlı etmək üçün seminarın mövzusundakı amilin çox vacib olduğunu və yeni idarəetmə üsulları barədə məlumatlandırma işinin davamlı olacağını bildirdi. D.Pərriş təcrübənin surətini çıxarmağın deyil, adaptasiyasının tərəfdarı olduğunu bildirib teatra baş çəkmək imkanları, yeni maliyyə imkanları və s. bölümlərdən ibarət nəzəriyyəsini açıqlamağa başladı. London Milli Teatrının öz tamaşalarını dünya kinoteatrları üzrə canlı yayımlamaq misalından çıxış edərək bildirdi ki, auditoriyanın genişliyinə nail olmaq yaradıcılıq məsələlərinə mane olmur. Pərrişin fikrincə, sənət ocaqlarının rəhbərlərinin iki yolu var – ya dövlətin maliyyəsinin azalmasından şikayətlənmək, ya da XXI əsrin imkanlarından yararlanmaq. İngiltərəli mütəxəssis auditoriya mədəniyyəti məsələsinə də toxundu – heyranlıq və sakitlik, yoxsa sərbəstlik? Və qeyd etdi ki, Şekspirin dövründə tamaşaçılar özlərini heç də birinci haldakı kimi aparmayıblar.



Boris Daussa-Pastor



Pavel Rudnev



Devid Parriş